*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (1) 2024*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:30.01.2024*
*Kabul tarihi |Accepted:20.02.2024*
*Yayın tarihi |Published:25.02.2024*

**İkram Ağasiyev**

https://orcid.org/0000-0003-0801-6683
*Professor, doctor of historical sciences, Director of the "Soviet period history of Azerbaijan" department of the History Institute named after A. A. Bakikhanov of the Azerbaijan National Academy of Sciences, ikramagasiyev@mail.ru*

*Atıf Künyesi | Citation Info*

Ağasiyev, İ. (2024). Xəzər Dənizinin Adı Qədim və Orta Əsr Mənbələrində. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (1), 462-471.

# Xəzər Dənizinin Adı Qədim və Orta Əsr Mənbələrində

***Öz***

*Məqalə Xəzər dənizinin tarixi adlarının araşdırılmasına həsr olunmuşdur. Müəllif qeyd edir ki, Xəzər dənizi haqqında ilkin məlumatlar eramızdan əvvəl IX əsr Assuriya mənbələrinə aiddir. Qədim assuriyalılar bu dənizi "Gündoğan dəniz" adlandırmışlar. E. ə. V əsrdə yunan müəllifləri Hekatey Miletli və Herodot bu dənizi Kaspi və Hirkan dənizi adlandırmışlar. Min ildən artıq dövrdə bu iki ad ən işlək adlar olmuşdur. VI əsrdən başlayaraq dənizin şimal-qərb sahillərində Xəzər türk tayfaları məskunlaşmışlar və 969-cu ilədək burada Xəzər xaqanlığı mövcud olmuşdur. O dövrdən başlayaraq, Şərq ölkələrində və bir sıra Avropa ölkələrində dəniz Xəzər dənizi adlandırılmışdır. Ümumən, tarixi mənbələrdə Xəzərin 70-ə qədər tarixi adı çəkilir. Bu adlar içərisində türksoylu tayfaların və dövlətlərin adları ilə bağlı toponimlər üstünlük təşkil edir. Bu gün dünyada rəsmi olaraq, əsasən Xəzər və Kaspi adlarından istifadə edilir.*

***Açar sözlər:*** *Xəzər dənizi, xəzərlər, Herodot,Hirkan, Xvalın.*

# Historical Names of Caspian Sea in Ancient and Middle Ages Sources

***Abstract***

*The article is dedicated to the study of historical names of Caspian Sea. The author notes that initial information about Caspian Sea refers to 9$^{th}$ century BC Assyrian sources. Ancient Assyrians called it "The Sea of rising Sun". Herodotus and Hecatheus, who were 5$^{th}$ century Greek authors, named this sea like Caspian and Hyrcan. This two names were the most used names during more than a*

*thousand years. Beginning from the 6th century, Khazar turkic tribes settled on the north-western shores of Caspian Sea and Khazar khakanate existed there till 969. Since this period, sea was called as Khazar by eastern and some western countries. Generally, Caspian Sea has nearly 70 names in historical sources. The names relating to turkic nations and states take great part of them. The names of Khazar and Caspian are used officially today.*

***Keywords:*** *Caspian Sea, hazarian, Herodotus, Hyrcan, Khvalyn*

## Giriş

Azərbaycan, Rusiya Federasiyası, Qazaxıstan, Türkmənistan, və İran dövlətlərinin ərazisi ilə əhatə olunmuş Xəzər dünyada ən böyük qapalı su hövzəsidir. Hələ çox qədimdən özünün gözəlliyi, sehrkarlığı və sirli aləmi ilə məşhur səyahətçilərin, alimlərin diqqət mərkəzində olan, Avropa və Asiya qitələrinin kəsişməsində yerləşən Xəzər dənizinin adı bu coğrafi məkanda baş verən tarixi proseslərlə bağlı olaraq dəfələrlə dəyişikliyə uğramışdır.

Xəzər haqqında ən ilkin məlumatlardan biri e.ə. IX əsrə aid gil tabletlər üzərində yazılmış qədim Aşşur (Assuriya) abidələrində verilmişdir. Assuriyanın paytaxtı Nineva yaxınlığında aparılan qazıntılar zamanı tapılan gil lövhələrdə assuriyalıların (aşşurluların) Xəzər dənizini " Şərq dənizi " və yaxud "gün doğan dəniz" adlandırması məlum olur (Dyakonov, 1956, s.163-164).

E.ə.VIII əsrdə yaşamış, "İliada" və "Odisseya" poemalarının müəllifi, qədim yunan şairi Homer səyyahların, tacirlərin söhbətlərindən ətraf ölkələr haqqında hekayətlər toplayaraq onları ümumiləşdirmiş, müəyyən nəticələr əldə etmişdir. O, əsərlərində Xəzər dənizini "Günəş nohuru" və yaxud "Günəş gölü" adlandırmışdır (Kaspiy ili Khazar, http:// letopisi. org/index.php/Каспий_или_Хазар).

Xəzər dənizi haqqında maraqlı məlumatlara həmçinin antik dövr yunan və Roma mənbələrində rast gəlinir.Bu nöqteyi-nəzərdən ilk növbədə I Daranın zamanında Kiçik Asiyanın Milet şəhərində yaşamış qədim yunan tarixçisi və coğrafiyaçısı Miletli Hekateyin (e.ə. 546-480-ci illər) əsərlərini qeyd etmək lazımdır. Bizanslı Stefan "Leksikon" adlı əsərində Miletli Hekateyin "Yerin təsviri"ni fraqmentlər şəklində nəşr etmişdir və bu fraqmentlərdə Xəzər dənizi haqqında məlumatlar yer alır. Məsələn, fraqment 169-da katan xalqı haqqında məlumat verən Miletli Hekatey qeyd edir ki, onlar Kaspi dənizinin sahillərində yaşayırdılar (Fragmenty iz «Zemleopisi» po «Leksikonu»). http:// bibliotekar, kz /istoriya kazakhistana – v-proizvedenijah akt/ fraqmenty iz – zemleopisanija – po – leksikonu: html).172-ci fraqmentdə isə Hekatey dənizi başqa cür adlandıraraq yazır ki, "Hirkan adlandırılan dənizin ətrafında qalın meşələrlə örtülmüş 15 uca dağlar var və bu dağlarda tikanlı kinara bitkisi bitir" (Fragmenty iz

«Zemleopisi» po «Leksikonu»).http://bibliotekar, kz /istoriya kazakhistana – v- proizvedenijah akt/ fraqmenty iz – zemleopisanija – po – leksikonu: html. "Coğrafiya elminin atası" Miletli Hekateyin coğrafi baxışlarını bütövlükdə təhlil edərək belə nəticəyə gəlmək olar ki, yunan səyyahı Xəzər dənizini gah Kaspi, gah da Hirkan dənizi adlandırmışdır.

Hekateydən sonra Xəzər dənizi haqqında maraqlı məlumatlar söyləyən e.ə.V əsrdə yaşamış "tarixin atası" Herodot olmuşdur. O, "Tarix" əsərində indiki Xəzəri onun sahilində yaşayan kaspi tayfaların adına görə Kaspi və daha sonra Hirkan dənizi kimi adlandırmışdır. Qeyd etmək lazımdır ki, kaspi tayfasının adı ilk dəfə Herodotun "Tarix" əsərində çəkilmişdir (İstoriki antiçnosti.V dvuh tomah.Tom pervıy, s. 115). Kaspilər – lullubi, kuti və turukki tayfalarından sonrakı dövrdə Azərbaycanda yaşamış ən qədim etnoslardan biridir. Kaspilər Albaniyada - indiki Şimali Azərbaycanın cənub-şərq hissəsində, təqribən müasir Beyləqandan şərq və cənubi-şərq ərazilərdə məskunlaşmışdıar. Qədim yunan-Roma mənbələrində bu ərazi Kaspiana, alban mənbələrində - Paytakaran (Kalankatlı, 2006, s.68,121), fars və ərəb mənbələrində isə Balasakan adı ilə məlumdur (Piriyev,2008, s.30) və indi Şimali Azərbaycanın tərkib hissəsidir. Kaspilərin bir hissəsi Xəzərin cənub-qərb sahillərində, yəni keçmiş Atropatena, indiki Cənubi Azərbaycan ərazisində də məskunlaşmışdılar.

Herodot "Tarix" əsərində Araz çayını təsvir edərkən onun Kaspi dənizinə töküldüyünü göstərir və Kaspi dənizini xarakterizə edərək onun "qapalı" su hövzəsi olduğunu, heç bir dənizlə əlaqəsi olmadığını yazır. Herodot yazır ki, Kaspi dənizini uzununa avarlı gəmi ilə 15 günə, eninə 8 günə üzüb başa çatdırmaq olar. Eyni zamanda, Herodot qərbdə Kaspi dənizinin Qafqaz dağ silsiləsi ilə həmsərhəd olduğunu da qeyd etmişdir (İstoriya Şirvana i Al-Baba, s.115). Hirkan adı isə dənizin cənub və cənub-qərb sahillərində yerləşmiş Hirkan ölkəsinin adından götürülmüşdür (Xəzərin tarixi haqqında, http: //www. azerbaijan. az/ portal/ World Community/CaspianStatus/caspianStatus_01_a.html). Həm Kaspi, həm də Hirkan adı Herodot tərəfindən də istifadə olunmuşdur. Herodota qədər hesab olunurdu ki, Hirkan və yaxud Kaspi dənizi bütün Yer üzünü əhatə edən Dünya okeanının şimal hövzəsidir. Herodotun dövründə Qırmızı, Ərəbistan və s. dənizlərin okeanla əlaqəsi elmə artıq məlum idi. Herodot bir dəniz haqqında olan baxışın mexaniki olaraq başqasına tətbiq edilməsinə qarşı çıxaraq ilk dəfə belə fikir söyləmişdir ki, Kaspi dənizi heç bir dənizlə əlaqəli deyil (İstoriki antiçnosti.V dvuh tomah.Tom pervıy, s.115).

Eramızın 86-160-cı illərində yaşamış Flavi Arrian da Xəzər dənizini Kaspi adlandırmış, onun şimal və şərq okeanları ilə əlaqəli olması haqqında fikirlər söyləmişdir. Onun məlumatına əsasən Xəzərin şimal və şərq okeanları ilə əlaqəsinin olması haqqında olan mübahisələrə son

qoymaq məqsədi ilə İsgəndər sərkərdə Patrokla bu məsələni araşdırmağı tapşırmışdır. Xəzərin bütün sahillərini yoxlamaq üçün Heraklitə cənubda dəniz donanması yaratmaq əmr edilmişdir. Lakin İsgəndərin ölümü ilə bu məsələ təxirə salınmışdır. E.ə. 285-280-ci illərdə İsgəndərin varislərindən biri Selevk Hirkan hakimi Patrokla bütün sahilboyu səfər etməyi və Xəzərin başqa dənizlərlə birləşib birləşməməsini öyrənməyi tarşırmışdı. Dövrünün savadlı dövlət xadimi olan Patrokl Qaraboğaz gölə çatmış və səfər nəticəsində yazdığı əsərdə onu Xəzər dənizini şimal okeanı ilə birləşdirən çay kimi qəbul etmişdir (İstoriya Kaspii i yeqo imyon, http://www.window2baku.com/Caspian/caspianmap.htm). Kvint Kursiy Ruf "Makedoniyalı İsgəndərin tarixi" əsərində III Daranın qoşunlarını təsvir edərək onların müxtəlif ərazilərdən gəldiyini, eyni zamanda Kaspi dənizi sahillərindən 8 min piyada və 200 süvari döyüşçünün gəldiyini qeyd etmişdir (Kvint Kursiy Ruf, 1989, s.503).

Aristotel (e.ə. 384-322-ci illər) Xəzəri Hirkan dənizi adlandırmış, onun yeraltı axınlarla Evksin Pontu ilə (Qara dənizlə) bağlandığını söyləmişdir (İstoriya Kaspii i yeqo imyon, http: //www.window2baku.com/Caspian/caspianmap.htm). E.ə. II əsrdə yaşamış qədim yunan kartoqrafı, alim Klavdiy Ptolemey 8 cildli "Coğrafiya" əsərinə əlavələrdə Xəzər dənizinin də xəritəsini vermiş və onu Kaspi dənizi adlandırmışdır (Pyatdesyat nazvaniy Kaspiyskoqo morya, http://www.outdoors.ru/book/namore/alm1967-68/1967-33. php). Bir neçə əsr ərzində qədim müəlliflərin Xəzəri okean körfəzi hesab etməsinə baxmayaraq, Ptolemey köhnə və yeni məlumatlar əsasında Kaspi dənizinin (Xəzərin) qapalı hövzə olmasını tam əminliklə söyləmişdir (İstoriya Kaspii i yeqo imyon, http: // www. window2baku.com/ Caspian/ caspian-map.htm).Sonrakı əsrlərdə yenə bu hövzəni okean körfəzi hesab edən alimlər olmuşdur. Bir məqamı yadda saxlamaq lazımdır ki, Xəzərin göl olması, qapalı hövzə olması həqiqəti 2 min ildən artıq mübahisədən sonra təsdiq edilmişdir. Məşhur coğrafiyaçı Strabon "Coğrafiya" əsərində Kaspi dənizini qərbdən-şərqə paralel formasında uzanan dəniz kimi göstərmişdir. Böyük Plini e.ə. 29-27-cu illərdə yazdığı çoxcildli "Təbiət tarixi" əsərində dənizin adlarının çox olduğunu vurğulamış və onlardan ən geniş yayılmış adların Kaspi və Hirkan olduğunu qeyd etmişdir (İstoriya Kaspii i yeqo imyon, http: // www. window2baku. com/Caspian/ caspianmap. htm).

II əsrdə yaşamış Roma tarixçisi Tasit qədim coğrafiyaçıların "Qafqazın qapıları", "Alan qapıları" adlandırdıqları Dəryal keçidini "Kaspi qapıları" adlandırmışdır (Pyatdesyat nazvaniy Kaspiyskoqo morya, http://www.outdoors.ru/book/namore/alm1967-68/1967-33. php). Afrika-nın şimalında - Karfagendə doğulan və yaşayan, məşhur Roma yazıçısı Marsian Kapella da (360-428) eynilə Herodot kimi Xəzəri Kaspi adlandırmış, bu adın dəniz sahilində yaşayan kaspi

tayfalarının adı ilə bağlı olduğunu göstərmişdir. O, yazırdı: “Bu dəniz okeana yaxındır. Orada, farsların qonşuluğunda kaspi adlanan xalq yaşayır” (Pyatdesyat nazvaniy Kaspiyskoqo morya, http://www.outdoors.ru/book/namore/alm1967-68/1967-33. php). Daha sonrakı qədim müəlliflər Kaspi, Hirkan adları ilə yanaşı Alban (albanlar etnonimi ilə əlaqədardır), Coşqun, Hirkan, Pontik, Cürcan və Gilan dənizi adlarını işlətmişlər.

Tarixin müxtəlif dövrlərində Xəzərin dənizinin sahəsi bəzən böyüyərək Volqa boyunca şimala doğru genişlənmişdir və İrandan Samara şəhərinədək geniş əraziyə malik olan bu hövzə Ağcaqıl dənizi kimi də adlandırılmışdır. Qədim Çin mənbələrində Xəzər dənizi Si Hay, yəni Qərb dənizi adlandırılmışdır (Pyatdesyat nazvaniy Kaspiyskoqo morya, http: // www. outdoors.ru/book/namore/alm1967-68/1967-33. php).).

VII əsrin 30-cu illərindən Ərəb xilafətinin Şimal istiqamətində genişlənməsi başlayır. VII əsrin 40-cı illərində ərəblər artıq Xəzər dənizinin hüdudlarına çatmışdılar. VIII əsrin əvvəllərinə həm cənubi, həm şimali Azərbaycan ərazilərinin Ərəb xilafətinə qatılması başa çatdı. Ərəblərin regiona gəlişi ilə dənizə yeni adlar verildi. 846-cı ildə ərəb yazıçısı və coğrafiyaçısı İbn Xordadbeh təsviri xarakter daşıyan “Yollar və dövlətlər haqqında kitab”ında Xəzəri Xvalisi, Xarəzm və Cürcan dənizi kimi adlandırmışdır (Kaspiy ili Khazar, http:// letopisi. org/index. Php / Каспий_или_Хазар)). IX əsrin sonu-X əsrin əvvəllərində yaşamış İbn Rusta 903-cü ildə yazdığı “Qiymətli sərvətlər kitabı” nda Xəzəri Al-Bab adlandırmışdır ki, bu da ərəbcədən tərcümədə “Qapı dəniz” mənasını verir. X əsrdə yaşamış ərəb yazıçısı əl-Fəqih kompilyativ xarakter daşıyan “Ölkələr haqqında kitab”nda Xəzəri Xorasan dənizi adlandırmışdır (Kaspiy ili Khazar, http:// letopisi. org/index. Php / Каспий_или_Хазар). X əsrin I yarısında ərəb tarixçisi İbn İsfəndiyar isə rusların Xəzərə yürüşü haqqında məlumat verərək öz həmvətənlərindən fərqli olaraq, dənizi Kaspi adlandırmışdır. Bu onu göstərir ki, erkən orta əsrlərdə ərəb müəllifləri qədim yunanların Xəzər dənizi haqqında fikirləri ilə tanış idilər.

Ancaq ərəb müəlliflərin böyük əksəriyyəti (Yaqut Həməvi, Zəkəriyyə Qəzvini, Əbül Fida, əl-İstəxri, İdrisi, əl-Məsudi və s.) bu dənizi onun şimal-qərbində yaşayan türkdilli xəzər tayfasının və onların yaratdığı möhtəşəm Xəzər xaqanlığının adı ilə Xəzər dənizi adlandırmışlar. Onların əsərlərində dəniz ətrafında yerləşən şəhərlər, qəsəbələr, dənizə tökülən çaylar, dənizdəki adalar, Bakıda hasil edilən neft haqqında məlumatlar verilir.

Eramızın 900-cü illərində ərəb müəllifləri Əl-İstəxri və İdrisi Xəzərin qapalı olduğunu sübut etmişlər. Əl-İstəxri “ Dövlətlərin yolları haqqında” əsərində yazırdı: "Hövzeyi-bəhru-əl Xəzərin bir nöqtə-sindən çıxıb onun sahili boyu hərəkət etməklə, yenə həmin nöqtəyə qayıtmaq

olar" (Xəzərin tarixi haqqında, http: //www. azerbaijan. az/ portal/ World Community / CaspianStatus/caspianStatus_01_a.html)).

Xilafət dövründə ərəb müəlliflərinin böyük əksəriyyəti dənizi Xəzər adlandırmışlar və hətta bu elmi ənənə o dövrdə Avropaya da yayılmışdı. Beləki, IX əsrdə yaşamış Amsterdamlı Georgi də dənizi Xəzər dənizi adlandırmışdır. Professor K. M.Bazileviç öz tədqiqatlarında XI əsrin əvvəllərində rusların Qara dəniz vasitəsilə Bizansa yürüşlər etdiyini və eyni zamanda onların Volqa çayı vasitəsilə Xəzər dənizinə çıxdığını göstərmişdir.O yazır ki, ərəb müəllifləri Volqa çayını "slavyan", "rus" çayı, dənizi isə Xəzər dənizi adlandırırdılar. Rusların "slavyan çayı"- Volqa vasitəsilə Xəzər ölkəsinə və Xəzər dənizinə çıxması barədə ərəb müəllifi İbn Xordadbeh « Yollar və dövlətlər haqqında kitab"ında yazmışdır. Məhəmməd əl - Həsən "Təbəristan tarixi"ndə (1216-1217) rusların 860-cı illərdə Abesqun adasına hücumu haqqında məlumat vermişdir (Bazileviç, htth: // flot.com/ history/io01 htm.pdf.).

X əsrin ən tanınmış ərəb coğrafiyaşünaslarından olan əl-Məsudu "Mürüc əz-zəhəb və məadin əl-cəvahir" ( "Qızıl təmizləmə yerləri və əlvan daş mədənləri") adlı əsərinin XVII fəslində Dərbənd qalası haqqında məlumat verərkən onun Ənuşirəvan tərəfindən dağ və Xəzər dənizi arasında tikdirdiyini qeyd edir ((İstoriya Şirvana i Al-Baba, http:// www. vostlit.info /Texts/rus13/Sirvan_Derbend/pril3.phtml?id=1900).

Rusların Xəzərsahili Azərbaycan torpaqlarına IX əsrin ikinci yarısında başlanan basqınları X əsrin əvvəllərindən daha da genişlənib aramsız şəkil aldı.

Adı çəkilən əl-Məsudi 912-913-cü illərdə rusların 500 gəmisinin (hərəsində 100 nəfərlə) "Xəzər çayı" (Volqa çayı nəzərdə tutulurdu) vasitəsilə üzərək dənizə çatması və Xəzər xaqanının icazəsi ilə Xəzər dənizinə çıxması haqqında yazmışdır (Bünyadov, 2005, s.186). 914-cü ildə rusların Xəzər sahillərinə daha bir yürüşü oldu. Hər birində 100 döyüşçü olan 500 gəmi ilə ruslar Xəzərə daxil oldular. Onlar Xəzər dənizinin cənub-şərqində Azərbaycan əyalətlərinə soxuldular, Bakı ətrafında və Xəzərin Azərbaycan sahillərində olan Pirallahı, Sahilan (Şəhilan), Zirə (Qumzirə), Kiçik Zirə, Böyük Zirə, Zənbilə (Duvannı), Xirə, Zirə, Sarı adalarında möhkəmləndilər və sahil məntəqələrini qarət etdilər, qadınları və uşaqları əsir alıb apardılar. Geri qayıdarkən Xəzərin şimal sahillərində təqribən 15000 nəfərlik müsəlman-türk qoşunları ilə rus drujinaları arasında şiddətli vuruşma baş verdi. Əl-Məsudinin məlumatına görə üç gün davam edən bu vuruşmada drujinalar darmadağın edildi, onlardan ancaq beş minə qədər döyüşçüdən ibarət kiçik bjr dəstə qaçıb canını qurtara bildi (Əliyarlı, 1996, s.212). 943-944-cü illərdə rusların Bərdəyə basqınını qələmə alan İbn Miskəveyh (1031-ci ildə ölüb) "Xalqların təcrübəsi haqqında kitab"ında və Mərvazi 1120-ci ildə tarixi-coğrafi traktatında yenə 944-cü il

rusların Bərdəyə hücumunu işıqlandıraraq Xəzər dənizi haqqında məlumat verirlər və onu Xəzər dənizi adlandırırlar (Bazileviç, htth: // flot.com/ history/io01 htm.pdf.).

Xəzər haqqında qiymətli məlumatlar həmçinin qədim slavyan mənbələrində də əks olunmuşdur. XII əsrdə Kiyevdə yazılan “Ötən illər haqqında povest” və yaxud “ Nestorun salnaməsi”ndə Volqa çayının Şərqə axaraq Xvalın dənizinə töküldüyü qeyd olunur. “İlya Muromes haqqında dastan”da yenə də dəniz Xvalın dənizi adlandırılır (O nazvanii «Xvalın-ckoye more», s.407). “Xvalın” termininin mənşəyi Kiyev Rus dövləti dövründə Amudərya çayının aşağı vadisində yerləşən, ərazisi Xəzər dənizinə qədər uzanan Xarəzm dövləti və bu dövlətdə yaşamış xvalisi tayfasının adı ilə bağlıdır. Qədim slavyanlar “xarəzm” sözünü “xvari” və yaxud “xvalı” kimi tələffüz edirdilər. Buradan da dənizin adını Xvalın dənizi və yaxud bu dövlətdə yaşamış xvalisi tayfasının adı ilə Xvalisi dənizi adlandırırdılar. Qədim slavyan əlyazmalarında Xəzər dənizi Göy Türk imperatorluğu ilə bağlı Göy dəniz və Kür çayının deltasında mövcud olmuş, XIV əsrdə dəniz altında qalan Abaskun adasının və şəhərinin adından Abaskun dənizi, Dərbənd dənizi, Bakı dənizi və s. kimi adlandırılmışdır. XIV əsrdən rus mənbələrində Xəzərin adı Qızıl Ordunın paytaxtı Saray-Batı səhərinin adi ilə Saray dənizi kimi çəkilir. Rus səyyahı Afanasiy Nikitin (XV əsr) Tver tacirləri ilə Hindistana səyahət zamanı Xəzər dənizində olmuş, öz təəssüratlarını “Üç dəniz arxasına səyahət” əsərində qeydə almışdır və kitabında Xəzər dənizini “Dərbənd dənizi” adlandırmışdır (Berg, 1946, s. 233-235). “Böyük çertyoj adlanan kitab”da göstərilir ki, Xvalın (Xəzər) dənizindən Göy dənizə (Arala) qədər məsafə 250 verstdir (Pyatdesyat nazvaniy Kaspiyskoqo morya, http://www. outdoors. ru/book namore /alm1967-68/1967-33. php). Volqa sahillərində yerləşən Xvalınsk şəhəri Xəzərin qədim rus dilində adının yadigarı kimi qalmaqdadır.

XVIII əsrin əvvəllərindən başlayaraq Rusiya mənbələrində dənizin adı Kaspi kimi göstərilməyə başlayır. Bu I Pyotrun apardığı qərbyönümlü siyasətin nəticəsi idi. Avropa ölkələrində olduğu kimi I Pyotr da Xəzər haqqında qədim yunan və Roma mənbələrinə üstünlük verirdi. 1718-ci ildə Rusiyada “Baş coğrafiya” («Генеральная география») kitabı nəşr olundu və burada dənizin adı Kaspi kimi göstərildi. I Pyotrun dəstəyi ilə fransız alimi Delil 1721-ci ildə Xəzərin əsl xəritəsini hazırladı, hansı ki, bu günkü xəritədən demək olar ki fərqlənmir (Pyatdesyat nazvaniy Kaspiyskoqo morya, http://www. outdoors. ru/book namore /alm1967-68/1967-33. php).

Orta əsr səyyahlarının əsərlərində də Xəzər dənizi haqqında məlumatlar verilir. Məsələn məhşur səyyah Marko Polo (XIII əsr) dənizi Bakı dənizi adlandırmışdır (Xəzər dənizinin ümumi səciyyəsi, http://gsaz. az/articles/ view/105/Characteristics-of-Caspian-Sea). “Katalon

xəritəsi" əsərində (1378) dənizçi Avraam Kreks Xəzər dənizini göstərmiş, onu Fransa kralı VI Karla göndərmişdir ki, bu əsər indi Luvr muzeyində nümayiş etdirilir (İstoriya Kaspii i yeqo imyon). 1453-cü ildə türklər İstanbulu fəth etdikdən sonra Avropa səyyahları yeni ticarət yolları axtarmağa başladılar. Avropadan Azərbaycana əsas ticarət yollarından biri də Volqa – Xəzər yolu oldu. Xəzər sahilindəki şəhərlərin, xüsusən də Bakının ticarət limanı kimi rolu artdı. XV əsrin ikinci yarısından başlayaraq müxtəlif orta əsr mənbələrində Xəzər dənizi Bakı dənizi kimi də adlandırılır. Venesiya Respublikasının 1474-1477-ci illərdə İrandakı səfiri A. Kontarinidə onu Bakı dənizi adlandırmışdır (Xəzər dənizinin ümumi səciyyəsi, http://gsaz. az/articles/ view/105/Characteristics-of-Caspian-Sea). Qərbi Avropa səyyahları Ziqmund Qerberşteyn (XVI əsr), ingilis Cenkinson və alman alimi Adan Oleari (XVII əsr) öz qeydlərində dənizi Kaspi kimi adlandırmışlar. 1674-cü ildə alman səyyahı Adam Olearinin tərtib etdiyi Xəzərin xəritəsi bir qədər yanlış olsa da, detalları ilə verildiyinə görə çox qiymətlidir (Pyatdesyat nazvaniy Kaspiyskoqo morya, http://www. outdoors. ru/book namore /alm1967-68/1967-33. php). Xəzər ətrafında yaşamış və yaşayan xalqlar da bu dənizi məxtəlif cür adlandırmışlar: Şimali Qafqazın kimmerləri onu Kimmerik dənizi, sarmatlar – Sarmat dənizi, Həştərxan, Kazan və Yayik tatarları onu Ağ Dəniz, Anadolu türkləri-Küçük Dəniz, Azərbayçan türkləri-Xəzər dənizi, Dağıstan türkləri Xəzər dəngizi,Tabasaran dənizi, türkmənlər-Hazar dənizi, mazandaranlılar-Mazandaran dənizi, Xorasan dənizi, qazaxlar-Kaspi dənizi və s. kimi adlandırmışlar.

Hazırda Xəzər ətrafında yerləşmiş ölkələrdə bu su hövzəsi: Azərbaycanda - Xəzər, İranda Xəzər və Mazandaran, Rusiyada, Qazaxıstanda və Türkmənistanda Kaspiy dənizi kimi adlandırılır. Bütün sadalanan adlar içərisində yalnız Xəzər və Kaspi tarixi və coğrafi ad hüququ qazanan, indiyə kimi dünya dövlətləri tərəfindən qəbul edilən rəsmi adlardır.

Dənizətrafı ölkə və şəhərlərə görə dəniz Saray (Qızıl Ordunun paytaxtı), Tabasaran, Həştərxan, Alban, Dərbənd, Şamaxı, Abşeron, Şirvan, Salyan, Muğan, Abeskun, Xorasan, Gilan, Mazandaran, Türkmən, Avar, Persiya, Deyləm, Gürcan, Əcnəbilər dənizi, Bakuk, Qundar, Torm, Sirsap, Ərən, Vrakan, Quzğun, Pəhləvi, Dorts, Kəmrut, Qızılbaş, İdil (İtil – Volqanın köhnə adı) və s. kimi adlandırılıb. Abşeron atəşpərəstləri Xəzəri Varqana və Çekayet-Dayeti kimi, ərəblər Gürcan, iranlılar Kolzum, hindistanlılar Vorukaşa, türkmənlər Göygöz, qazaxlar Atıray, türklər Küçük Dəniz, tatarlar Ağ dəniz adlandırmışlar (Pyatdesyat nazvaniy Kaspiyskoqo morya, http://www.outdoors.ru/book/namore/alm1967-68/1967-33. php)). Türk mənbələrində "Ağ dəniz" həm də " Böyük dəniz" mənasında işlədilirdi. Monqollar Xəzəri "Çaqan – nor" (yəni, Ağ dəniz) adlandırırdılar. Əvvəllər ruslar Xəzəri "Göy dəniz"

adlandırmışlar. Bu Göy türk imperatorluğunun adı ilə bağlı idi. İran mənbələrində Xəzər həmçinin Qurqan, Şizir, Gürzüm, Bab dənizi və s. adlandırılmışdır (İstoriya Kaspii i yeqo imyon, http://www.window2baku.com/Caspian/caspianmap.htm).

**Xəzərin adının çoxluğu nə ilə bağlıdır?**

1) Əvvəla Xəzərətrafı ərazilər qədim svilizasiyalar məskənidir. Burada ən qədim zamanlardan müxtəlif tayfalar xalqlar yaşamışlar. Onlar öz adlarını dənizə vermiş, tayfalar birləşdikcə, yeni insan birlikləri yarandıqca, Xəzər dənizinin də adında dəyişiklik baş vermişdir;

2) Xəzərə verilən adların bir çoxu onun ətarfında mövcud olan dövlətlərin adı ilə bağlıdır;

3) Xəzərətrafı ərazilər strateji əhəmiyyətə malik olduğundan tez-tez işğalçıların hücumlarına məruz qalmışdır və onlar dənizə öz dillərinə uyğun adlar vermişlər;

4) Avropa ilə Asiya arasında əsas ticarət yollarından birinin Xəzərin həm şimalından, həm də cənubundan keçməsi, eyni zamanda Xəzər sahillərində yerləşən şəhərlərin bu ticarət əlaqələrində mühüm rol oynaması xarici səyyahlara, tacirlərə əsas vermişdir ki, dənizə ticarət apardıqları şəhərin adını versinlər.

Antik dövr və orta əsr alimlərinin, səyyahlarının əsərləri əsasında demək olar ki, özünün çoxəsrlik tarixi ərzində Xəzərin 70-dək adı olmuşdur. Bu adlar adətən onun sahilində məskunlaşmış böyük tayfa birliklərinin, əhalinin adına görə, ya da sahilyanı zolaqda yerləşən şəhər, vilayət, ölkələrin adlarına və yaxud dənizdə yerləşən adanın adına görə verilirdi. Bu nöqteyi-nəzərdən Xəzərin Kaspi, Hirkan, Kimmerik, Pontik, Sarmat, Xəzər, Xvalınsk, Abes-kun, Xorasan, Tabasaran, Mazandaran, Göy, Ağdəniz, Dərbənd, Bakı, və s. kimi adları bununla bağlı olmuşdur. Adlar içərisində yalnız Xəzər və Kaspi tarixi və coğrafi hüquq qazanaraq indiyə kimi qalmışdır və rəsmən işlədilməkdədir.

**Nəticə**

Xəzər dənizinin adının mənşəyinin tarixini ilə tanışlıq belə bir nəticəyə gəlməyə imkan verir ki, bu dənizin tarixi adlarının mütləq əksəriyyəti dəniz ətrafında yaşamış türk xalqlarının və yaxud Xəzər hövzəsində mövcud olmuş türk dövlətlərinin,bu dövlətlərə məxsus şəhərlərin, qəsəbələrin adları ilə bağlıdır.

Bu gün dünyada dənizin iki adı rəsmən qəbul edilmişdir və işlədilməkdədir: Kaspi və Xəzər. Qeyd etdiyimiz kimi, Kaspi adı dənizin qərb sahillərində yaşamış kaspi tayfalarının və onları ölkəsi Kaspiananın adından götürülmüşdür. Sonralar Kaspiana bir vilayət kimi Azərbaycan Albaniya dövlətinin tərkibində olmuşdur. Bu gün Azərbaycan əhalisi antrapoloji cəhətdən kaspi tipinə aiddir və sözsüz ki, Azərbaycan xalqının etnogenezisində iştirak edən əsas etnoslardan biri də kaspilər olmuşdur (Əliyarlı, 2012, s.149-150).

Dənizin ikinci adı – Xəzər dənizinin şimal- qərb ətrafında yaşamış türksoylu xəzər tayfalarının və onların yaratdığı Xəzər xaqanlığının adı ilə bağlıdır. Bu xaqanlıq VII-X əsrlərdə mövcud olmuş möhtəşəm türk dövləti idi (Qumilyov,1993, s.10). Xəzərlərin böyük bir qismi indiki Azərbaycan Respublikası ərazilərində məskunlaşmış və Azərbaycan xalqının etnogenezisində əsas rol oynayan tayfalardan biri olmuşdur. X əsrdə Xəzər xaqanlığı tənəzzülə uğradıqdan sonra xəzərlər qonşu türk xalqları ilə qaynayıb- qarışmış, onların mədəniyyətində, məişətində, adət və ənənələrində silinmnəz iz buraxmışdır.

Müasir dövrümüzdə də hansı dövlətin vətəndaşı olmasından asılı olmayaraq, Xəzər ətrafındakı ərazilərdə yaşayan əhalinin mütləq əksəriyyətini türk xalqları – azərbaycanlılar, qazaxlar,türkmənlər, kumıklar, tatarlar və s. təşkil edir. Bu nöqteyi-nəzərdən, Xəzər Böyük Turan elinin daxili dənizi olmuş və qalmaqdadır.

**Kaynaklar**

Bazileviç, К. B. *Iz istorii morskikh pokhodov v VII – XII вв*.htth: // flot.com/ history/io01

Berg, L.S. (1946). Izdaniye AN SSSR.

Bünyadov, Z.M. (2005). *Azərbaycan VII-IX əsrlərdə.* Elm nəşriyyatı.

Əliyarlı, S. (1996). *Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci illərə qədər.* Azərbaycan nəşriyyatı.

Əliyarlı, S. (2012). *Tariximiz, açıqlanmamış mövzuları ilə.* Mütərcim nəşriyyatı.

*Fragmenty iz «Zemleopisi» po «Leksikonu»*.http: // bibliotekar, kz /istoriya kazakhistana v-proizvedenijah akt/ fraqmenty iz – zemleopisanija – po – leksikonu: html.

*Xəzərin tarixi haqqında.*http: www.azerbaijan.az/portal/WorldCommunity

Istoriya Kaspii i yego imya http://www.window2baku.com/Caspian/caspianmap.htm
Istoriya Shirvana i Al' – Baba. XVII glava.

*Kaspiy ili Khazar*, http:// letopisi. org/index.php/Каспий_или_Хазар

Kvint Kurrtsiy Ruf. (1989). *Istoriya Aleksandra Makedonskogo*. Istorii antitichnosti. V dvukh tomakh. Tom ran'she. Drevnyaya Gretsiya. Perevod s drevnegrecheskogo. Izdaniya Pravdy.

Piriyev, V. (2008). *Azərbaycanın tarixi-siyasi coğrafiyası.* Müəllim nəşriyyatı.
*Pyatdesyat nazvaniy Kaspiyskoqo morya*.http://www.outdoors.ru/book/namore/alm1967-68/1967-33.php

*Xəzər dənizinin ümumi səciyyəsi.* http://gsaz.az/articles/view/105/Characteristics-of- Sea

http://www.vostlit.info/Texts/rus13/Sirvan_Derbend/pril3.phtml?id=1900